# Rəqslərimizin şöhrəti - Cəmilə



*Əhsən Rəhmanlı tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Milli rəqslərimizin tədqiqatçısı olaraq deməliyəm ki, dövrü mətbuatda, xüsusilə jurnallarda bu sənətin təbliğinə soyuq münasibətlə qarşılaşıram. Əslində isə bu olmamalıydı. İndi belə məsələlərdə daha ayıq-sayıq olmalıyıq. Çünki erməni millətçiləri uzun illərdir ki, rəqslərimizi də öz adlarına çıxmaqdan əl çəkmirlər. Zəngin keşmişə, dərin məzmuna, çoxşaxəliyə malik Azərbaycan rəqsləri daim təbliğ olunmalıdır. "Kredo"da doğmalıq hiss edərək bu qəzetə sığındım. Mənim bu istiqamətdə olan yazılarıma burada qucaq açıldı və geniş imkan yaradıldı.

YUNESKO-nun 26 noyabr-1dekabr tarixlərdə Maceriki Respublikasının paytaxtı Port Luis şəhərində keçirilən Qeyri Maddi-Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 13-cü sesiyasında qəbul edilən qərarla "Yallı" (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri kimi YUNESKO-nun Təcili Qorunma siyahısına daxil edilib. Erməni tərəfi ha çalışsa da, buna mane ola bilməyib və haqq öz yerini alıb.

Xalqın keçmişindən soraq verən "Yallı", Cəngi", "Yallı-Zorxana", "Halay" və digər əzəmətli rəqslərimiz peşəkar və özfəaliyyət rəqs kollektivlərinin proqramında özünə daim yer tutaraq vətənimizdə, keçmiş Sovetlər birliyinin hər yerində və xarici dövlətlərdə nümayiş etdirilmişdir. Belə kütləvi rəqslərin quruluşçuları və ifaçıları haqqında müntəzəm olaraq mətbuatda yazılar getməli və televiziyalarda verilişlər təşkil edilməlidir. Bu məqalədə barəsində məlumat verdiyimiz rəqqasə-baletmeyster də milli rəqslərimizin daim daxilində olmuş və dəyərli sənəti ilə ən sevimli sənətkara çevrilmişdir.

Cəmilə Əsədulla qızı Bayramova 1957-ci il iyulun 20-də Bakıda anadan olub. 1964-cü ildən Biləcəri qəsəbəsindəki 4 saylı ümumtəhsil məktəbdə oxuyub. 1967-1975-ci illərdə Bakı Xoreoqrafiya Məktəbinin (hazırda Bakı Xoreoqrafiya Akademiyası) klassik balet artisti şöbəsində oxuyub. Burada ilk ixtisas müəllimi İrina Davudovna Kaqarlitskaya olub. C.Bayramova Azərbaycanın ilk balerinası, SSRİ Xalq artisti, Akademik Opera və Balet Teatrında ən çətin obrazları yaradan, həm də xoreoqrafiya təhsili üzrə böyük pedaqoq olan Qəmər Almaszadə İraqda dərs deyib qayıdandan sonra BXM-də onun buraxılış sinfini bitirib. Qəmər xanımın həmin buraxılış sinfindən Bakıda qalıb fəaliyyət göstərən yeganə Cəmilə xanımdır.

BXM-nın I kursunda oxuyarkən İ.D.Kaqarlitskaya Cəmiləni bəstəkar Əşrəf Abbasovun (1920-1992) Opera və Balet Teatrının səhnəsində oynanılan "Qaraca qız" baleti üçün hazırlamışdı. Cəmilə Qaraca qızın uşaqlıq dövrünü, Tamilla Şirəliyeva isə əsərin qəhrəmanının böyük çağlarını oynayırdı. C.Bayramova təhsil illərində 4 il Opera Teatrının səhnəsində "Doktor Oybolit" tamaşasında Vaniçka rolunda çıxış edərək oğlan obrazını yaradıb. O, BXM-də yüksək səviyyə ilə oxumuş, təhsil aldığı sahəni yaxşı mənimsəmiş, əsl kadr kimi yetişmişdi. Sonuncu kursda o, 1 il Opera və Balet Teatrında təcrübə keçmiş və bacarığı ilə özünü doğrultmuşdu. İmtahanlarda da öz göstəriciləri ilə diqqəti cəlb etmişdi. Odur ki, klassik rəqs sənəti nümayəndəsi kimi yetkin səviyyə almışdı.

Bu səbəbdən də təhsili uğurla başa vuran C.Bayramovanın təyinatı təcrübə keçdiyi teatra verilmişdi.

Cəmilə xanım təyinat yerində cəmi yarım il çalışır. Yaxın rəfiqələrinin təkidi ilə Dövlət Filarmoniyasına keçir və Rəqs Ansamblında çalışır. Burada bir maraq da əhəmiyyət kəsb edirdi ki, rəfiqələri bu ansambla xarici dövlətlərə səfərlərə gedirdilər. Cəmilə xanım klassik balet artisti ixtisası kimi təhsil alsa da, əvvəldən milli rəqsə maraq göstərmiş və səhnələrdən, televiziya konsertlərindən xalq rəqslərinin hərəkətlərini mənimsəmiş, sərbəst məşqlər sayəsində bunları öz ifasında möhkəmləndirmişdi. Odur ki, Dövlət Rəqs Ansamblına keçən Cəmilə xanım heç də nigaran hisslər yaşamadı və çətinlik çəkib özünü itirmədi. Beləliklə, o, 1975-ci ildən ansamblın repertuarındakı bütün kütləvi rəqslərdə çıxış edir, gündən-günə, aydan-aya, ildən-ilə mükəmməl milli rəqqasəyə çevrilir. C.Bayramova 1979-cu ildən ansamblın solisti kimi çıxış edir. Onun plastikası, səhnə cazibəsi, obraz yaratmaq bacarığı, füsunkar gözəlliyi, sərbəstliyi, hərəkətləri bütün incəlikləri ilə sinxron, dəqiq yerinə yetirməsi, quş kimi süzməsi, sona kimi üzməsi, tərəf-müqabillərə münasibəti, aşıb-daşan enerjisi, rəqs quruluşlarını yaxşı mənimsəməsi və s. üstün cəhətləri kollektivin rəhbərlərini, baletmeysteri, ansamblın bütün üzvlərini qane edirdi. Çoxları onunla tərəf-müqabil olmaq arzusunda idi. Belə ki, bu xanım hər bir rəqs quruluşunda sərbəst idi, kamil rəqqasə kimi tərəf-müqabilini daha yaxşı duyur və qarşı tərəfin səviyyəli sənət nümayiş etdirməsinə imkan yaradırdı. 1979-cu ildə ansamblın bütün heyəti xarici ölkə səfərinə getmişdi. SSRİ xalq artisti, görkəmli baletmeyster Leyla Vəkilova (1927-1999) ansambla rəhbərlik edirdi. Cəmilə xanımın xatirələrindən: "Xəbər gəldi ki, xarici ölkəyə səfər var. Çətin vəziyyət yaranmışdı. Axı, kollektiv səfərdə idi. Cəmi üç nəfər qalmışdıq. Mənə dedilər:

- Solo ifa edən lazımdır, bacararsan?

Sevincək dilləndim: - Əlbəttə bacararam.

Təəccüblə soruşdular: - Axı, repertuardakı siloları haradan öyrənmisən? Kim öyrədib?

- Məşqlər zamanı, həm də səhnə konsertlərində diqqət yetirmişəm, həvəs göstərib yaxşı mənimsəmişəm, hafizəmdə qalıb, bütün rəqslərin sololarını bilirəm, hamısı yadımdadır. Beləliklə, İsveçdə olduq. "Tərəkəmə", "Qavalla rəqs"i tək solo olaraq ifa etdim. "Nazeləmə"ni tərəf-müqabil rəqqasla, "Ağ çiçək" rəqsini isə Emilya Əliyeva ilə oynadım".

Cəmilə xanımın ifalarındakı qadın nəcibliyi, xanımlığa məxsus təravət, cazibə, hüsnü - gözəllik, zəriflik və incəliklə bərabər, əzəmət, vüqar, dolğun rəqs çalarları ilk səfərdən özünü biruzə verib təsdiq aldı, alqış, rəğbət qazandı, bu nümunəvi və cəlbedici vəziyyət sonrakı dövrlərə qədər davam etdi. İsvec səfəri və dərhal sonra ansamblın bütün heyəti ilə Tunis konsertlərindəki soloları haqqında yazılar qəzetlərin manşetlərinə çıxarıldı.

Cəmilə xanım artıq Rəqs Ansamblının solisti kimi uğurlu ifaları ilə seçilir və sevilirdi. O, SSRİ xalq artisti, akademik Ü.Hacıbəylinin "Koroğlu" operasından "Qızlar rəqsi"ndə çox gözəl solo göstərirdi. Ansambla Özbəkistanın Daşkənd şəhərindən baletmeyster dəvət olunmuşdu. Onun hazırladığı özbək rəqsində də C.Bayramovanın füsunkar solosu var idi. O, səhnədə özü deyildi, əsl özbək qızı idi. Onun ifasında qardaş xalqın klassik rəqs hərəkətlərinin ətri duyulur, cazibəsi görünürdü və o, bunu xüsusi bacarıqla canlandırırdı.

Tanınmış rəqqasə, baletmeyster olaraq xalq artisti Cəmilə Bayramova Bakı Mədəniyyət İdarəsinin (hazırda Mədəniyyət Nazirliyinin) tabeliyində fəaliyyət göstərən "Cəngi" estrada-folklor ansamblda da çalışmışdır. Onun buradakı fəaliyyəti də səmərəli olduğu üçün bu barədə bir sıra fikirlərimizi bildirməli oluruq. O, bu ansamblda da bütün repertuar üzrə solist kimi çıxış etmişdir. "Cəngi" ansamblında "Turacı" da oynanılırdı. O, "Turacı" rəqsini öz repertuarına daxil edərək, onun üzərində yaradıcılıq işi aparmış, sevə-sevə rəqs etmiş, əsl sənət əsəri halına gətirərək həm rəqsi, həm də özünü sevdirmişdir. Doğrudan da Cəmilə Bayramova Əminə Dilbazidən (1919-2010) sonra "Turacı" rəqsinin ən gözəl ifaçısı kimi qəbul olunmuşdur. O, bu rəqsdə süjet xəttini düzgün tuta, məzmunu verə və əsl obraz yarada bilir. Xüsusilə dağ quşu Turacın yaralı vəziyyətdə çırpıntılarını, yenidən ayağa durub uçmaq istəyini rəqsin dili ilə təsvir edərək tamaşaçını inandırır.

Cəmilə xanım "Cəngi"də duet və kütləvi rəqslərdə Əməkdar artist, mahir rəqqas Xanlar Başirovla tərəf müqabil olmuş, bütün sololarını onunla ifa etmişdir. Ümumiyyətlə sənət fəaliyyəti ərzində xarici ölkələrdə də Cəmilə xanımın soloları Xanlarla birlikdə olmuşdur.



Moskva səfəri üçün baletmeyster-xoreoqraf Qəhrəman Nəsirov "Cəngi" estrada-folklor, Dövlət Rəqs, Dövlət Mahnı və Rəqs Ansambllarının qruplarının birləşdirilməsi ilə xalq artisti, görkəmli bəstəkar Aqşin Əlizadənin (1937-2016) musiqisinə "Bayram rəqsi" qurmuşdu. Solist C.Bayramova idi. Moskvadakı konsert uğurlu keçmiş, həmin rəqsdə Cəmilə xanımın solosu alqışlara qərq olmuşdu. Qeyd etməliyik ki, Cəmilə xanım özü də bu rəqsə quruluş vermişdir.

Xalq artisti, bəstəkar Rafiq Babayev (1936-1994) Cəmilə xanıma rəqslərə quruluş verməyi tövsiyə edir. O, iki qızın ifası ilə "Qaytağı" ritmləri üzərində 5 dəqiqə üçün nəzərdə tutulan "Zaqatala qızları" rəqsini qurur və özü solist olur. Hər şey yaxşı qarşılanır. Burada texniki hərəkətlərə çox yer verilir. Bilindiyi kimi Zaqatala bölgəsində yaşayan etnik xalqların musiqi, rəqs həyatında, mədəniyyətində oynaq temp, "Qaytağı" tipli ritm əsas mahiyyət daşıyır. Elə Cəmilə xanım da bunu nəzərə almışdır.

Onun öz fikirlərindən: "C.Cahangirovun (1921-1992) "Lirik mahnı" (İlk bahar) adlı musiqisinə ansamblın qızları üçün rəqs qurmuşdum. Burada qadın rəqslərinə aid bütün hərəkətləri göstərmişdim. Bunu hər konsertimizdə oynamışdıq. Q.Nəsirov T.Quluyevin (1917-2000) "Qaytağı"sı üzərində mənim və X.Başirovun solo oyununu nəzərdə tutaraq rəqs qurdu. Doqquz oğlan, doqquz qız üçün qurulan bu kütləvi rəqsin solisti olaraq ifamız çox yaxşı alınırdı.

Moskvada keçirilən «Mayskie zvozdı» (May ulduzları) festivalı üçün proqramda olan "Cəngi", "Yallı", "Qaytağı", "İlk bahar", "Zaqatala qızları", "Yeddi gözəl" rəqslərini Mərkəzi Televiziya çəkmiş və ölkə üzrə yayımlamışdı. Burada "Yeddi gözəl"i qısaldımış variantda təqdim etməli olduq.

"Cəngi" ansamblında Xumar Zülfüqarovanın (1927-2017) qurduğu "Yeddi gözəl" də ən çox sevdiyim rəqslərdəndir. Burada Ü.Hacıbəylinin "Sevgili canan" romansından istifadə edilib. Xumar xanım türk musiqisi üzərində "Türk rəqsi" qurmuş və mənimlə sola hazırlamışdı" .

"Yeddi gözəl"də Xanlar Bəşirov Bəhram şah rolunu oynayıb. Q.Nəsirov Tofiq Quluyevin "Qaytağı"sı üzərində işləyərək C.Bayramova və X.Bəşirov üçün solo hazırlamışdı. Bu rəqs də səhnədə çox gücü effekt verir və təlatüm yaradırdı.

1995-ci ilin yanvarında ABŞ-nın Çikako, Vaşinqton, Nyu-York, Kanadanın Toronto və Monrial şəhərlərində 1 aylıq səfər ərzində "Cəngi" estrada-folklor ansamblın maraqlı proqramla konsertləri olmuşdur. Ansambl səfərə bütün heyəti ilə getmişdir. Bundan əlavə xalq artistləri - tarzən Ramiz Quluyev, kamança ifaçısı Ədalət Vəzirov və xanəndə Zahid Quliyev də qrupa daxil edilmişdir. Təşkilati dəstək İran vətəndaşı, Bakıdakı iş adamı Cəbrayil Lütfi tərəfindən olmuşdur. "Cəngi"nin repertuarında "Bayram rəqsi", "Nazeləmə", "Xəyal", "Qaytağı" nümayiş olunmuş və alqışlar qazanmışdır.

C.Bayramova 2000-2018-ci illərdə Əməkdar kollektiv, Azərbaycan Dövlət Rəqs Ansamblının baletmeysteri və solisti olaraq mühüm əhəmiyyətli işlərə imza atmışdır. Burada işlədiyi dövrdə proqram üzrə bütün quruluşların solisti və aparıcı qüvvə o, olmuşdur. Bu rəqslər içərisində "Nazeləmə","Ağ çiçək","Bulaq başında", R.Hacıyevin musiqisi üzərində qurulmuş "Azərbaycan" suitası, H.Xanməmmədovun musiqisinə hazırlanmış "Xəyal" xüsusi vurğulanmalıdır. Onun 2008-ci ildə filarmoniya səhnəsində Əməkdar artist Xanlar Başirovla birlikdə solist olduğu "Azərbaycan suitası"ndakı ifası xüsusi maraq doğurur. Həmin rəqs internet səhifəsində də yerləşdirilib. Bu suita indiyə qədər də kollektivlərdə Ə.Abdulayevin quruluşu ilə oynanılır. Lakin Cəmilə xanım özündə qüvvə tapıb, bir baletmeyster olaraq bu suitaya quruluş vermiş və özü də solist olmuşdur. O, ümumi milli rəqs hərəkətləri əsasında bir sıra rəqslərə də öz quruluşunu vermişdir.

Cəmilə xanımın fikirlərindən: "Ən çox sevdiyim rəqslərdən biri "Xəyaldır". Burada Xanlar Başirovla tərəf-müqabil olmuşam. Mən burada məni sevən oğlanın gözünə ruh kimi görünürəm, o isə real varlıq kimi qəbul edir. Dəfələrlə səhnəyə tərəf-müqabilin qarşısına ruh kimi çıxırdım. Bunu etmək, obrazı yaratmaq kimsə, elə də asan gəlməsin. Bu əsərdə dərin, fəlsəfi sevgi var. Bu hisslərə qapılmaq, bunu yaşamaq, sevgi dolu hisslərlə səni arzulayan insanın gözləri qarşısında xəyal kimi peyda olmaq, inandırıcı halda görünmək üçün, bunu dərindən anlamaq, başa düşmək və ümumiyyətlə, bunu rəqs hərəkətləri, üz cizgiləri ilə yaratmaq lazımdır. Bütün bunları ifadə etməklə tamaşaçını inandırmalısan.

Deməliyəm ki, biz bu rəqsi hər dəfə ifa edəndə Fərhad Vəliyev xüsusi zövqə qapılır, ləzzət alır, sevinir, razı qalır və qürur hissi keçirirdi. Elə biz də baletmeysteri, müəllimi, yaradıcı, zəhmət çəkən şəxsi razı saldığımız, qane etdiyimiz, bir də tamaşaçını inandırdığımız, onların alqışlarını qazandığımız üçün özümüzü xoşbəxt sanır və qürurlanırdıq".

C.Bayramova baletmeysteri olduğu Mahnı və Rəqs Ansamblının rəqs qrupunun ifası ilə 14 gün ərzində Rizvan Sədirxanovun "Səyyah Sindbad" rok-operasına rəqs quruluşu verib. Burada çox maraqlı, çətin və dəyərli yaradıcılıq işi var. Əsər 2018-ci il oktyabrın 27-də Heydər Əliyev sarayında oynanılıb. Libretto da R.Sədirxanovundur. Qeyd olunmalıdır ki, "Səyyah-Sindbad" rok-opera janrında Azərbaycanda yazılan və səhnə həyatı qazanan ilk əsərdir. Milli Məclisin mədəniyyət komitəsinin sədri, akademik, tanınmış yazıçı-juralist Rafael Hüseynovun "Səyyah Sindbad" rok-orerası haqqında mətbuatdakı çıxışından: "Bu çox mühüm tarixdir. Həm Rizvan Sədirxanovun taleyində, həm də bütövlükdə mədəniyyətimizin yaddaş kitabında.

***(Davamı 14-cü səhifədə)***

*(Əvvəli 13-cü səhifədə)*

Rejissor Nicat Kazımov öz işinin öhdəsindən layiqincə gəlmişdir. Təbii ki, qısa bir vaxt ərzində ağılasığmaz dərəcədə həcmli iş görmüş, rəqslərin quruluşçusu Cəmilə Bayramovaya, tamaşaya bayram ovqatı verən İlham Elxanoğluya dərin təşəkkür düşür".

Çox heyif ki, yüksək zövqə, böyük yaradıcılıq bacarığına, həssas ürəyə, dərin sənət sevgisinə və digər xeyli üstün cəhətlərə malik bir insan olan Cəmilə xanım bu yaxınlarda bəzi bədxahların bezdirib, küsdürüb, incik etməsi ucbatından Mahnı və Rəqs Ansamblından getmişdir. Belə nadir sənət adamlarını nəinki bezdirmək, əksinə hər cür şərait yaradıb göz üstündə saxlamaq lazımdır. Nədənsə, itirə-itirə gedirik. Görkəmli baletmeyster, əvəzsiz rəqs mütəxəssisi, rəqslərimizin mahir quruluşçusu Fərhad Vəliyev də "Cəngi"dən, Dövlət Mahnı və Rəqs Ansamblından beləcə uzaqlaşdırıldı. Hələ əvvəllərə nazər salsaq, bu gün çoxlarının milli rəqsimizin atası-babası saydıqları Əlibaba Abdullayevi (1915-1980) də yaradıcılığının ən çılğın, işıqlı, məhsuldar dövründə incidib, küsdürüb, işinə mane olduqları üçün, o, fədakarcasına çalışdığı ansambllardan gedirdi. Bu faktlar nahaqdan qabardılmır, belə lazımsız hallarının qarşısı alınmalı, nadir sənət adamları qorunmalı, nə qədər ki, həvəsləri, yaradıcılıq imkanları var, istifadə edilməlidir. Bütün sahələrdə ustadlara qucaq açılmalıdır.

Müsahibə zamanı C.Bayramova vaxtılə rəhbəri olduğu kollektiv haqqında ruh xoş sözlərlə danışdı. Orada onun işlədiyi dövrdə qazanılan nailiyyətlərdən söhbət açdı, dörd nəfərin əməkdar artist daca elə bilirəm ki, dünyanın ən qiymətli mükafatını mənə veriblər. Həmin qızlar böyüyüblər, maşallah özlərinin övladları var. Mən həmin işimi yenə də davam edirəm, azyaşlılardan ibarət qrupla işləyirəm. İndiyə qədər xeyli səfərlərimiz olub. Hollandiya, Türkiyə (dəfələrlə) və Türk Kıprız Respublikasında maraqlı çıxışlarımız olub. Balacaların zövqü inkişaf edib formalaşsın, biliyi, həvəsi artsın, zərif, kövrək baxışları dünyaya istiqamətlənsin deyə, onlarla başqa xalqların - ərəb, hind, polyak, qazax, özbək, rus, fransız, Amerika və Ukraina rəqslərini də hazırlayıram. İndiyə qədər olduğum səfərlərdə, filmlərdə, televiziya verilişlərində görüb-götürdüyüm hərəkətlər yadımda qaldığı üçün başqa xalqların rəqslərini hazırlamaq mənə nəsib olur. Azərbaycan xalq rəqsləri hərəkətlərini də hazırladığım quruluşlara gətirirəm. Məsələn, "Sudan gələn sürməli qız" folklor mahnısı üzərində hazırladığım rəqsdə öz fikirlərimdən çıxış edərək cürbəcür hərəkətləri ardıcıllıqla dəyişirəm".

Cəmilə xanım "Xəzər" Universitetində tələbələrdən ibarət özfəaliyyət rəqs kollektivinə də rəhbərlik etmiş, 2000-ci ilə qədər burada çalışmışdır. Bundan əlavə o, on səkkiz ildir ki, H.Əliyev adına Müasir Təhsil Kompleksində dərs deyir. Bütün bunlara C.Bayramovanın yaradıcılığını özündə ehtiva edən jurnal və qəzet məqalələrində rast gəlmək olar.

Cəmilə xanım "Cücələrim"də işləyərkən hazırladığı uşaqlardan peşəkar sənətə gəlib məşhurlaşanlar da var. Nümunə olaraq xalq artisti Rüfət Xəlilzadəni göstərə bilərik. R.Xəlilzadə hazırda

fəxri adı aldığını, ümumiyyətlə, burada bacarıqlı, ifaçıların, xususilə BXA-nı bitirib gələn istedadlı, perspektivli rəqqasələrin olduğunu söylədi.

Rəqs sənətinin əsl mütəxəssisi kimi yetişən və formalaşan C.Bayramovaya 1991-ci ildə əməkdar, 2000-ci ildə xalq artisti fəxri adı verilib. Bir daha deyirik ki, Cəmilə xanım milli səhnəmizin nadir incilərindəndir, sənətinin ən parlaq, qıvraq, gur işıqlı, yar-yaraşıqlı, gül-çiçəkli, nur ləçəkli, şirəli, irəli dövrüdür.

C.Bayramova zəhmətsevər, yorulmaz və sənətin vurğunu kimi uşaq rəqs kollektivlərində də çalışaraq, bəzi qrupları isə özü yaradaq səmərəli, yaradıcı fəaliyyət göstərib. Və bu xanım həmin uğurlu işləri böyük məhəbbətlə bu gün də davam etməkdədir. Nümunə olaraq 1989-1994-cü illərdə Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzindəki "Cücələrim" ansamblında çalışmağını, onun tərkibində eksperiment kimi öz qrupunu yaradıb iki il işləməyini, sonra isə ayrıca fəaliyyət göstərən üç yaşlı qızlardan ibarət "Dəcəl qızlar" ansamblını göstərmək olar. Həmin kollektivlərin Türkiyə, Yaponiya və digər ölkələrə səfərləri təşkil olunmuşdu.

C.Bayramovanı dinləyirəm: "Cücələrim"dən gedəndən sonra, üç yaşları olan on altı qızın valideynləri mənim ardımca gəldilər. Mən həmin uşaqlarla BMA-nın opera studiyasında məşq aparmağa başladım. O vaxt "Cəngi" ansamblı da orada məşq edirdi. Çox gözəl nəticə alındı. Moskvanın " » (Səhər ulduzu) verilişindən Yuri Nikolayev Bakıya gəldi. Bizim azyaşlı uşaqların rəqsini çox bəyəndi və həmin veriliş üçün Respublika sarayında çəkiliş apardı. Xatırlayıram ki, mənim balaca artistlərim "Barbi" adlı rəqsi də oynadılar. Həmin qızlarla 8 saylı uşaq musiqi məktəbində məşqlər aparırdıq. Belə azyaşlı qızlarla işləmək nə qədər çətin olsa da, mənə stimul verir, zövq bəxş edir, yaşamaq həvəsimi artırır. Onlar alqışlanarkən üzlərindəki sevinc, fərəh hissləri, tamaşaçıların fasiləsiz alqışları məni duyğulandırır, xoş anlar bəxş edir və həmin an-

Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri və solistidir.

2007-ci ildə "Space" televiziyası C.Bayramova və X.Bəşirovun 50 illik yubileyləri ilə bağlı çəkilişlər edərək yayımlayıb. Cəmilə xanım ayrıca dörd solo, X.Bəşirovla isə iki duet - "Nazələmə" və "Xəyal" rəqslərini ifa edib. Həmin maraqlı ifalar da "Youtube" internet kanalında yerləşdirilib və xeyli sayda rəqssevərlər tamaşa edib.

06.11.2017-ci il tarixində, Azərbaycan Dövlət Filarmoniyasında Cəmilə Bayramovanın 60 illik yubleyi təntənəli şəkildə keçirilib. Gecədə Mahnı və Rəqs Ansamblı, İrandan və Türkiyədən gələn rəqs kollektivləri, Cəmilə xanımın yetirmələri çıxış edib. Sonda yubilyar xanım özü "Turacı", "Hisslər", "Azərbaycan maralı" və "Yüz bir" rəqslərini böyük sevgi ilə ifa edərək tamaşaçılara ərməğan edib.

İnternetdə C.Bayramovanın ifa etdiyi solo və duet rəqslərin sayı çoxdur. Rəqslərin bir-bir adını qeyd etməyə lüzum görməsək də, deyirik ki, milli rəqs sənəti və həm də C.Bayramovanın yaradıcılığı, son dərəcə maraqlı ifaları ilə maraqlanmaq istəyən oxucularımız İnternetin "Youtube" yayım kanalı vasitəsilə tanış ola bilərlər.

Bu gün cəsarətlə deyə bilərik ki, C.Bayramova da nümunəvi sənəti ilə rəqslərimizə şöhrət gətirmiş və hər yerdə sevdirmişdir.

Fikrimizin sonunda Azərbaycan rəqs sənətinə ömür vermiş, səhnələri fəth etmiş, gözəl, incə, nəcib, təravətli rəqsləri ilə qəlbləri riqqətə gətirmiş, xarici dövlətlərdə mədəniyyətimizin təbliğatçısına çevrilmiş, rəqs kollektivlərində uğurlu işləri ilə tanınmış, daim öyrənərək, öyrədərək sənət yolu gəlmiş və bu gün də pedaqoq kimi sevimli işinin davamına yetişmiş Cəmilə xanıma böyük nailiyyətlər arzulayırıq. Yaşa, yarat Cəmilə xanım, ömrün üstə ömür gəlsin, bahar gəlsin, yeni sabah, səhər gəlsin, işlərinə nübar gəlsin...